# Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm:**
**“Biznes və logistika” kafedrasının**
**müdiri: dos. Əliyev M.Ə.**
**27 noyabr 2024 -ci il**

## “BİZNES ANALİTİKASI VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ”
## fənni üzrə İŞÇİ TƏDRIS PROQRAMI (Sillabus)

**I. Fənn haqqında məlumat**

| | |
|---|---|
| **Fənnin kodu:** | **ÜFS-00193** |
| **Fənnin növü:** | **2 blok (seçmə)** |
| **Tədris ili:** | **2024/2025** |
| **Tədris semestri:** | **payız** |
| **Fakültə:** | **“Biznes və menecment”** |
| **Qrup:** | **2126** |
| **Tədris yükü:** | **20 saat** |
| **Kredit sayı:** | **3** |
| **Kafedra:** | **“Biznes və logistika”** |

**II. Müəllim haqqında məlumat**

| | | | |
|---|---|---|---|
| **Fənni tədris edən müəllim:** | **Aslanova Afaq (i.ü.f.n., b/m** | | |
| **E-mail ünvanı:** | afaqaslanova777@gmail.com | | |
| **whatsapp:** | **050-394-80-77** | | |
| **Tələbələrə məsləhət saatları:** | **I** | **II** | **günlər** |
| | **12.00-dan** | **13.00-dək** | |

## III. Fənnin təsviri

Bu fənn, ümumi (seçmə) fənlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə biznes analtikası və risklərin idarəedilməsinin inkişaf istiqamətləri ilə bağlı baza biliklərini təqdim edərək, onlara biznesin analtika sahəsində olan mövcud problemləri anlamaq üçün lazım olan bacarıq və vərdişlər aşılayır.

"Biznes analtikası və risklərin idarəedilmsi" kursunun quruluşu bir-birilə sıx qarşılıqlı əlaqəli mövzulardan ibarətdir. "Biznes analtikası və risklərin idarəedilməsi" kursunun əsas məqsədi – tələbələrə anailtik düşünmə yolunu öyrətmək,yaşadıqları cəmiyyəti,dünyanı daha yaxşı anlamalarına və düzgün qərar verə bilmələrinə imkan yaratmaq, onların ölkə üçün rasional,məlumatlı,yüksək iqtisadi təfəkkürlü iqtisadçı,həmçinin vətandaş kimi formalaşdırılmasına nail olmaqdır.

Kursun bütün mövzuları bir sistem şəklində biznes analitikası və risklərin idarəedilməsinin nəzəri təhlilinə həsr edilmiş, onun strukturu və məzmunu elə planlaşdırılmışdır ki, tələbələr kursu başa vurarkən biznes analtikası və risklərin idarəedilməsinin ümumi əsaslarına yiyələnəcəklər. Sonrakı tədris fənlərini öyrənərkən bu kurs daxilində qazandıqları bilik və bacarıqları daha da möhkəmləndirəcək, həmçinin müstəqil iş prosesində biznes analitikası və risklərin idarəedilməsi haqqında təsəvvürlərini dərinləşdirə və genişləndirə biləcəklər.

## I. Fənnin məqsədi və vəzifələri

"Biznes analitikası və risklərin idarə edilməsi" fənni bakalavr səviyyəsində iqtisadçı kadrların hazırlanması prosesində tədris olunan fənlərdən biri olub, əsas məqsədi iqtisadçı-bakalavrlara biznes analtikası və risklərin nəzəri və təcrübi məsələlərini, bazar iqtisadiyyatlı ölkələrdə analtika və biznesdə risklərin idarə edilməsinin müasir problemləri və inkişafının prioritet istiqamətləri haqqında bilikləri öyrətməkdir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Biznes analtikasının konseptual əsasları haqqında tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- Riskin konsepsiyaları və əsas komponentlərini,ətraf mühit amillərinə təsiri və elmi yanaşmaları tələbələrə təqdim etmək;
- Biznes fəaliyyətində riskin qiymətləndirilməsi metodlarını başa salmaq;
- Ümumi riskin ölçülməsi göstəricilərini tələbələrə öyrətmək.

## II. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisində **dialektikanın** (təbiətin, cəmiyyətin və insan düşüncəsinin inkişafının ümumi qanunauyğunluqlarını öyrənir) və **formal məntiqin** (banisi Aristoteldir – elm "orqanon", yəni dərketmə aləti – fikrin, onun quruluşu və forması nöqteyi-nəzərindən öyrənilməsi) baza üsulları sayılan **təhlil və sintez, induksiya və deduksiya, müqayisə və analogiya, riyazi-iqtisadi üsullardan** istifadə edilir.

## III. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Komputerin idarəetməyə təsirini;
- Biznes analtikasının komponentlərini;
- Biznes analtikasında istifadə olunan metodları;
- Riskin düzgün aparılması və ona reaksiya verilməsini;
- Cəmiyyətdə riskin təsirinin dəyişməsinin;
- Riskin müəyyən edilməsi üsullarınıvə s.

**Bacarmalıdırlar:**

- İnformasiya- komnikasiya vasitələrini biznes fəaliyyətinə tətbiq etmək;
- Biznes fəaliyyətində verilənlərdən əsas nəticələr və proqnozlar çıxarmağı və onlardan istifadə etməyi;
- Fiziki və mənəvi təhlükəni fərqləndirməyi;
- Böyük şirkətlərin təyin etdiyi standart və qaydaları təyin etməyi;
- Risklərin əsas növlərini müəyyən etməyi;
- Riskin dərəcəsini aşağı salmağı və s.

## IV. Prerekvizitlər

Yoxdur.

## VII. Fənnin mühazirə mövzuları

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Biznes analitikasınının mahiyyəti və əsas konsepsiyaları
2. Biznes analitikası: Metodlar və Proqram təminatı
3. Riskin konsepsiyaları və əsas komponentləri
4. Riskin ətraf mühit amillərinə təsiri
5. Riskin növləri
6. Maliyyə riskinin qiymətləndirilməsi
7. Ümumi riskin ölçülməsi göstəriciləri
8. İnvestisiya layihələrinin vahid riskinin qiymətləndirilməsi
9. Biznesdə riskin tənzimlənməsi
10. Riskin idarə edilməsi prosesi

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları "EDUMAN" sistemi vasitəsi ilə elektron formatda hər bir tələbənin şəxsi kabinetinə yönləndirilir.

## X. Əsas dərslik və dərs vəsaitləri

1..Muzaffer Kapanoğlu,Prof.Dr.2019. "İşletme analtiği"
2. Sevgi Abdalla, Dr.Öğr.Üyesi .2019. "İşletme analtiği"
3. Dr Bill Stein BA. PhD FCII FIRM "Introduction to risk management"2024
4.Xanhüseyi Kamımlı,İbrahim Quliyev "İqtisadi risklərin qiymətləndirilməsi"İqtisad Universiteti 2011

Qeyd: Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Əsas məzmunu | Mənbə |
|---|---|---|---|
| 1 | **Biznes analitikasınının mahiyyəti və əsas konsepsiyaları** | İdarəetmədə informasiyanın tələbləri və analitikliyi həmçinin informasiyanın əlcatlığı bununla yanaşı hesablanması. Biznes zəkasının komponentlərini və analtikanın növlərini fərqləndirməyi | İşletme analtiği, Anadolu Unverisitesi -2019. Fəsil I, səh. 4-24 |

| | | | |
|---|---|---|---|
| **2** | Biznes analitikası: Metodlar və Proqram təminatı | Təsviri analitika üsüllarını və məlumat növlərini,məlumat yayımının yaradılmasını, mərkəzi meyil ölçülərini,dəyişənlər arasındakı əlaqələrin müəyyən edilməsini,proqnoz analtik üsullarını və reqresiyya üsullarını | İşletme analtiği, Anadolu Unverisitesi -2019. Fəsil İİ, səh. 26-40 |
| **3** | **Riskin konsepsiyaları və əsas komponentləri** | Təşkilatların üzləşdiyi əsas risklər,risk və sığortanı, risk və qeyri-müəyyənliyi, riskin səviyyəsi,risk qavrayışlarına çatmaqda davranış nümunələri | Introduction to risk management I11,2024 STUDY TEXT Fəsil I, səh. 1.1-1.16 |
| **4** | **Riskin ətraf mühit amillərinə təsiri** | Cəmiyyətdə riskin dəyişən təsiri, fəlakətlərin tezliyi və şiddəti,risk və qanun,yaranan və gələcək risklər | Introduction to risk management I11,2024 STUDY TEXT Fəsil I I, səh.2.1-2.17 |
| **5** | **Riskin növləri** | Riskin növləri,korporativ risk əməliyyat riski,digər tez-tez istifadə olunan təsnifatlar,sığorta təşkilatlarına tətbiq edilən risk kateqoriyaları və faktorları | Introduction to risk management I11,2024 STUDY TEXT Fəsil I I I səh.3.1-3.21 |
| **6** | **Maliyyə riskinin qiymətləndirilməsi** | Risklərin təhlilinin əsas vəzifələri,maliyə riskinə aid olan elementləri,faiz riskinin növlərini,bazar portfel riskini,riskin qiymətləndirilməsi prosesinin mərhələlərini həmçinin idarəedilməsi sistemini | İqtisadi risklərin qiymətləndiri lməsivə idarəedilməsi Fəsil I I Səh 41-56 |
| **7** | **Ümumi riskin ölçülməsi göstəriciləri** | Risk vəziyyəti:qeyri-müəyyənliyin olması,alternativin seçilməsi və zəruriliyi, seçilən alternativin həyata keçirilməsi ehtimalın mühüm xassələri, | İqtisadi risklərin qiymətləndirilməsi və idarəedilməsi Fəsil I I I Səh 58-66 |
| **8** | **İnvestisiya layihələrinin vahid riskinin qiymətləndirilməsi** | Layihənin vahid riskinin qiymətləndirilməsi metodları,həssaslığın təhlili,ssenarilərin təhlili,Monte-Karlo metodu ilə imitasion modelləşdirmə, “Qərarlar ağacı”nın təhlili,investisiya layihələrinin risk şəraitində təhlili | İqtisadi risklərin qiymətləndiri lməsi və idarəedilməsi FəsilVII Səh 117-129 |
| **9** | **Biznesdə riskin qarşısının alınması** | Riskin aradan qaldırılması,riskləri yoxlanılması,riski köçürməyi,onun qorunması,biznesin davamlılığının idarə edilməsi (BCM)risklərə nəzarət vasitələrinin | Introduction to risk management I11,2024 |

| | | | |
|---|---|---|---|
| | | monitorinqi və qiymətləndirilməsi | STUDY TEXT Fəsil 6 səh.6.1-6.17 |
| 10 | **Riskin idarə edilməsi prosesi** | Risklərin idarə edilməsinin təkamülü,sığorta ilə biznes riskinin idarə edilməsində ilkin inkişafın olması,riskin idarə edilməsinin mərhələri,Risklərin idarə edilməsi üzrə beynəlxalq standartlar | Introduction to risk management I11,2024 STUDY TEXT Fəsil 4 səh.4.1-4.15 |

**ESTASİYA - SEMİNAR DƏRSLƏRİNDƏ BALLARIN YAZILMASI**

Qiymət meyarları

İmtahan test üsulu ilə keçirilir. Test 50 sualdan ibarət olub, hər bir sual bir baldır. Səhv

**A**
**T**
**T**

cavablanan suallar, düzgün cavablanan sualların ballarını silmir.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların

## **XII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

Semestr ərzində tələbələrə 30 ballıq qrup işləri (hər qrupda 4-5 tələbə olmaqla) tapşırığı verilir Dərsə davamiyyət

Dərslərdə davamiyyət sərbəst olsa da, tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Çünki modul sistemdə onun qiymətləndirilməsinin 100 mümkün baldan 50-si auditoriyadakı (30 sərbəst iş + 20 seminar dərsləri) fəallığı əsasında müəyyənləşdiriləcəkdir. Bu 20 bal isə seminar dərslərindəki balların (1-10-a kimi) hər birinin 0,3 əmsala vurulub, cəminin toplanması qaydası ilə toplanacaqdır. Yəni tələbə seminar dərslərindən məsələn, maksimum 20 bal toplamaq üçün 6 dəfə müəllimi tərəfindən 10 balla qiymətləndirilməlidir.

## **XV. Aralıq qiymətləndirmə**

- yoxdur

## **XVI. Yekun imtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada, yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları, yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## **XVII. Fənn üzrə yekun qiymətləndirmə**